# ŞƏXSİN SAĞLAM ƏTRAF MÜHİTDƏ YAŞAMAQ HÜQUQUNUN POZULMASI NƏTİCƏSINDƏ ONA DƏYMİŞ ZİYANIN ÖDƏNİLMƏSİ

**A.S.TALIBOV**
***Bakı Dövlət Universiteti***
***azad_talibov@mail.ru***

*Təqdim olunan məqalə müasir dünyada ən çox müzakirə edilən ətraf təbii mühitin çirkləndirilməsinin insan orqanizminə vurduğu ziyanın qüvvədə olan qanunvericilikdə və məhkəmə təcrübəsində hesablanılmasının mövcud qaydaları və onun inkişafının bəzi perspektivlərinə həsr edilmişdir. Müəllifin fikrinə görə, bu sahədə hər bir şəxsin onun ekoloji maraqlarının həyata keçirilməsi ilə əlaqədar olan hüquqları və şəxsin pozulmuş və ya pozulmaqda davam edən ekoloji maraqlarının müdafiəsinə yönələn hüquqları vardır. Məqalədə daha geniş yer şəxsin sağlam ətraf mühitdən istifadə hüququnun pozulması nəticəsində ona dəymiş maddi və mənəvi ziyanın kompensasiyası məsələlərinə verilmişdir.*

Ətraf mühitin insanın təsiri nəticəsində nə dərəcədə dəyişilməsi və bunun nəticəsində insanın da digər canlılarla birgə üzləşə biləcəyi problemlər qlobal səviyyədə ən çox müzakirə olunan mövzulardandır. Ərazisində yaşadığımız Bakı şəhərinin ekoloji vəziyyətinin beynəlxalq miqyasda nə dərəcədə olması çoxdan sirr deyil. Məsələn, dunyanın ən məşhur jurnallarından sayılan "*Forbes*" jurnalının 2008-ci ildə verdiyi məlumata əsasən, Bakı şəhəri Yer kürəsinin ən çirkli şəhəri kimi qeyd olunmuşdur. Əlavə etmək lazımdır ki, Bakı, Moskva və Alma-Ata şəhərləri istisna olmaqla digər keçmiş sovet məkanı şəhərləri bu siyahıya düşməmişlər. Avropanın da heç bir şəhəri bu siyahıda yoxdur (1).

Blacksmith Institutunun (ABŞ) apardığı tədqiqatların nəticələrinə görə Sumqayıt şəhəri də oradakı sənaye komlekslərinin fəaliyyəti nəticəsində dünyanın ən çirkli şəhərlərindən birinə çevrilmişdir (2). Dünyada son illər həmçinin ekoloji cəhətdən ən təmiz və ən çirkli ölkələrin də siyahıları tutulur. Məsələn Blacksmith İnstitutunun 2007-ci ildə dərc etdiyi tədqiqatlara görə dünyanın ekoloji cəhətdən ən çirkli ölkələrinin siyahısına Azərbaycan, Çin, Hindistan, Peru, Rusiya, Ukrayna və Zambiya daxil edilmişdir (3). Yel və Kolumbiya Universitetlərinin( ABŞ) ekspertlərinin apardıqları tədqiqatların nəticəsinə əsasən ekoloji göstəricilərə görə dünyanın ən təmiz ölkələri: İsveçrə, İsveç, Norveç, Finlyandiya, Kosta Rika, Avstriya, Yeni Zelandiya, Latviya, Kolumbiya, Fransa, İslandiya, Kanada və s.-dir (4).

Yuxarıda göstərilən statistik məlumatlar şəxsin sağlam ətraf mühitdə yaşamaq hüququnun Azərbaycan vətəndaşları üçün nə dərəcədə əhəmiyyətli olmasını sübut edir. Azərbaycan Respublikası Konstitutsiaysının 39-cu maddəsi sağlam ətraf mühitdə yaşamaq hüququ adlanır. Qeyd olunan normaya ğörə, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurul-

muş zərərin əvəzini almaq hüququ vardır (5).

Hər bir şəxs ətraf mühitlə təmasda olması prossesində bir sıra hüquqlara malik olur ki, bunların da həm Beynəlxalq əhəmiyyətli Konvensiyalarda, həm də müxtəlif dövlətlərin milli qanunvericiliyində öz əksini tapmış olur. Zənnimizcə, qeyd olunan hüquqa aid olan bütün hüquqları 2 növdə fəqləndirmək olar: *şəxsin ekoloji maraqlarının həyata keçirilməsi ilə əlaqədar olan hüquqlar və şəxsin pozulmuş və ya pozulmaqda davam edən ekoloji maraqlarının müdafiəsinə yönələn hüquqlar.* Şəxsin ekoloji maraqlarının həyata keçirilməsi ilə əlaqədar olan hüquqlara aşağıdakı hüquqları aid etmək olar:

1) şəxsin onun sağlamlığı və həyatı üçün *əlverişli olan ətraf təbii mühitdən istifadə etmək hüququnu;*

2) şəxsin müəyyən edilmiş qaydada *ətraf mühiti dəyişdirmək hüququnu* ;

3) şəxsin *ətraf mühitin vəziyyəti barədə informasiya almaq hüququnu.*

Şəxsin ekoloji maraqlarının həyata keçirilməsi ilə əlaqədar olan hüquqlarla yanaşı həmçinin şəxsin pozulmuş və ya pozulmaqda davam edən ekoloji maraqlarının müdafiəsinə yönələn hüquqları da vardır. Belə hüquqlara aiddir:

1) dövlət orqanlarından, hüquqi və fiziki şəxslərdən ətraf təbii mühitin çirkləndirilməsinə yönələn konkret fəaliyyət növünə və ya müntəzəm olaraq davam edən bu cür hərəkətlərə son qoymağı tələb etmək;

2) ətraf təbii mühitin çirkləndirilməsi nəticəsində ona dəymiş maddi ziyanın əvəzinin ödənilməsini tələb etmək;

3) ətraf təbii mühitin çirkləndirilməsi IIə əlaqədar ona dəymiş mənəvi (psixoloji) ziyanın kompensasiyasını tələb etmək hüququ.

Sırf mülki hüquq nöqteyi-nəzərindən yuxarıda sadalanan üç hüquq mülki hüquqların müdafiə vasitələrinə aid edilir. Lakin bizim məqsədimiz şəxsin ətraf təbii mühitlə təmasda olma prosesində malik olub həyata keçirə biləcəyi bütün səlahiyyətləri bir-bir nəzərdən keçirməkdir. Bu səbəbdən də biz mülki hüquqların mümkün olan müdafiə vasitələrini də subyektiv hüququn məzmununda nəzərdən keçiririk.

Beləliklə, qeyd etdiyimiz səlahiyyətlərdən (hüquqlardan) biri də dövlət orqanlarından, hüquqi və fiziki şəxslərdən ətraf təbii mühitin çirkləndirilməsinə yönələn konkret fəaliyyət növünə və ya müntəzəm olaraq davam edən bu cür hərəkətlərə son qoymağı tələb etmək hüququdur. Azərbaycan Respublikasının "Ətraf mühitin mühafizəsi haqqında" 8 iyun 1999-cu il tarixli Qanunun 6-cı maddəsində göstərildiyi kimi, fiziki şəxslər ətraf mühitin mühafizəsinə dair dövlət hakimiyyəti orqanlarına və təşkilatlarına müraciət etmək, həmçinin ictimai ekoloji ekspertiza haqqında təkliflər vermək hüququna malikdirlər (6).

Məlumdur ki, müasir dövrdə ətraf mühitin mühafizəsi sahəsində bir sıra ictimai birliklər də fəaliyyət göstərirlər. Göstərilən təşkilatların da məhz bu sahədə geniş hüquqları vardır. "Ətraf mühitin mühafizəsi haqqında" 8 iyun 1999-cu il tarixli Qanunun 7-ci maddəsinin 6 və 7-ci bəndlərinə əsasən, ictimai birliklər inzibati və məhkəmə qaydasında ekoloji cəhətdən zərərli müəssisələrin, tikililərin və qurğuların yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istismara verilməsi, o cümlədən ətraf mühitə və insanların sağlamlığına mənfi təsir göstərən təsərrüfat fəaliyyətinin məhdudlaşdırılması, müvəqqəti və daimi dayandırılmasını tələb etmək hüququna, həmçinin təqsirkar təşkilatların, vəzifəli şəxslərin və vətəndaşların məsuliyyətə cəlb edilməsi barədə məsələlər qaldırmaq hüququna malikdirlər.

Əfsuslar olsun ki, Azərbaycan Respublikasında şəxsin sağlam ətraf mühitdə

yaşamaq hüququnun pozulması nəticəsində ona dəymiş ziyanın ödənilməsi ilə əlaqədar məhkəmə təcrübəsi hələ də yoxdur. Zənnimizcə, bunun əsas səbəblərindən biri insanların sağlam ətraf mühitdə yaşamaq hüququnun nədən ibarət olmasını kifayət qədər dərk etməmələri və bu hüququn pozulduğu halda onların hansı müdafiə vasitələrindən istifadə edə bilməsi imkanlarını bilməmələrindədir. Baxmayaraq ki, Azərbaycan Respublikası "Ətraf mühitə dair informasiya aşkarlığı, ictimaiyyətın bu sahədə qərarlar qəbul olunmasında iştirakı və ədalət mühakiməsinin aşkarlığı barədə" 25 iyun 1998-ci il tarixli Aarxus Konvensiyasına 1999-cu ildən qoşulmuşdur, lakin bu sahədə problemlər yenə də qalır. Göstərilən Konvensiyanın 1-ci maddəsinə əsasən: "İndiki və gələcək nəslin nümayəndəsi olan hər bir insanın, onun sağlamlığı üçün əlverişli olan ətraf mühitdə yaşamaq hüququnun müdafiəsinin təmin edilməsi üçün konvensiyanın iştirakçıları olan tərəflər bu konvensiyanın şərtlərinə uyğun olaraq, ətraf mühitə dair informasiyanın aşkarlığına, ictimaiyyətin bu sahədə qərarlar qəbul olunmasında iştirakına və bu sahədə ədalət mühakiməsinin aşkarlığı barədə təminat verirlər" (7). Çində adı gedən Konvensiyanın şərtlərinin cəmiyyətdə çox geniş tətbiqi nəinki onların məhkəmə təcrübələrindən məlumdur, bu həmçinin əhali təbəqələrinin ekoloji problemlərlə əlaqədar kifayət qədər məlumatlandırılması və ictimaiyyətin bu sahədə qərarlar qəbul olunmasında bizim ictimaiyyətdan fərqli olaraq daha aktiv olmasında da özünü biruzə verir. Məsələn, **"**Gansu Economic Daily" 2007-ci ildən etibarən "Əhalinin ekoloji hüquqlarının müdafiəsi" bölməsini yaratmış və hər həftə vətəndaşların ekoloji hüquqlarının müdafiəsi ilə əlaqədar Çinin məhkəmə təcrübəsinin materiallarını müvafiq hüquqi kommentariyalarla birgə dərc edir (8).

Şəxs sağlam ətraf mühitdə yaşamaq hüququnun pozulması nəticəsində ona dəymiş ziyanın ödənilməsini tələb edə bilər. Bu kimi məhkəmə işlərində ətraf mühitə təhlükəli təsir edən fəaliyyətlə məşğul olan həm hüquqi şəxslər, həm də fiziki şəxslər cavabdeh ola bilərlər. Göstərilən hüququn təmin edilməsi 2 müxtəlif formada: qeyri-yurisdiksiya formasında, yəni könüllü formada, həmçinin yurisdiksiya formasında, yəni məhkəmə qaydasında təmin edilə bilər. Fiziki şəxsə dəymiş maddi zərər həm real zərər, həm də əldən çıxmış fayda formasında olur. Bu halda real zərər - zərər çəkən şəxsin müalicəsinə, dava-dərmanına və s. çəkilən xərclərdə əks oluna bilər. Daha dəqiq desək, Mülki Məcəllənin 1118-ci maddəsinin 1-ci bəndində göstərildiyi kimi, şəxsin sağlamlığının pozulması ilə bağlı əlavə çəkdiyi xərclərin, o cümlədən müalicəyə, əlavə qidalanmaya, dava-dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitələri əldə edilməsinə, başqa peşəyə hazırlanmaya çəkdiyi xərclərinin əvəzi ödənilir, bu şərtlə ki, zərərçəkənin həmin yardım və qulluq növlərinə möhtac olduğu və bunları pulsuz almaq hüququnun olmadığı müəyyənləşdirilsin. Əldən çıxmış faydanın müəyyən olunması Mülki qanunvericilikdə istifadə olunan "itirilmiş qazancın" hesablanılması qaydasına əsaslanır. Mülki Məcəllənin 1119-cu maddəsində göstərildiyi kimi, zərərçəkənin itirdiyi və əvəzi ödənilməli qazancın (gəlirin) miqdarı onun xəsarətdən və ya sağlamlığının başqa şəkildə pozulmasından və ya əmək qabiliyyətini itirməsindən əvvəlki orta aylıq qazancından (gəlirindən) faizlər şəklində müəyyənləşdirilir. Bu faizlər zərərçəkənin professional əmək qabiliyyətini itirməsi dərəcəsinə, professional əmək qabiliyyəti olmadıqda isə ümumi əmək qabiliyyətini itirməsi dərəcəsinə uyğun gəlməlidir. Zərərçəkənin itirdiyi qazancın (gəlirin) tərkibinə onun həm əsas iş yerində, həm də əvəzçilik üzrə əmək və mülki hüquq müqavilələri əsasında əməyinin ödənilməsinin gəlir vergisi tutulan bütün növləri daxil edilir. Zərərçəkənin orta aylıq qa-

zancı (gəliri) onun sağlamlığının pozulmasından əvvəlki on iki aylıq qazancının (gəlirinin) ümumi məbləğinin on ikiyə bölünməsi yolu ilə hesablanır. Zərər vurulanadək zərərçəkənin on iki aydan az işləmiş olduğu halda orta aylıq qazancı (gəliri) sağlamlığın pozulmasından əvvəlki faktik işlənilmiş aylar üçün qazancın (gəlirin) ümumi məbləğinin həmin ayların sayına bölünməsi yolu ilə hesablanır (9).

Şəxsin sağlam ətraf mühitdə yaşamaq hüququnun pozulması nəticəsində ona dəymiş ziyan yalnız maddı ziyan formasında deyil, həmçinin qeyri-maddi ( mənəvi) ziyan formasında da biruzə verə bilər. Bu halda belə ziyanla üzləşmiş şəxs mənəvi ziyanın kompensasiyasını tələb etmək hüququna malik olur. Bəzi müəlliflər qeyd edirlər ki, şəxsin sağlam ətraf mühitdə yaşamaq hüququnun pozulması nəticəsində onun sağlamlığına ziyan dəyərsə, o, yalnız mənəvi ziyanın kompensasiyasını tələb edə bilər və bu onun yeganə imkanı ola bilər (10, 11). Zənnimizcə, bu fikirlə razılaşmaq qəti olmaz. Çünki şəxsin sağlam ətraf mühitdə yaşamaq hüququnun pozulması nəticəsində onun sağlamlığına həm maddı ziyan, həm də qeyri-maddi (mənəvi) ziyan dəyə bilər. Bəzən bunlardan hər ikisi, bəzən də yalnız biri məhkəmədə iddia predmetini təşkil edə bilər. Bu kimi məhkəmə işlərində maddi ziyanın kompensasiyasından fərqli olaraq, mənəvi ziyanın kompensasiyası qanunvericilik səviyyəsində həll olunmamış bir sıra problemlərlə üzləşir. Bu sahədə mövcud olan əsas problem, qüvvədə olan milli qanunvericilikdə mənəvi ziyanın anlayışının verilməməsindədir. İkinci problem isə mənəvi ziyanın kompensasiyası ilə əlaqədar olan işlərdə məhkəmələr tərəfindən rəhbər tutulmalı əsas meyarlar barədə mülki və digər hüquq sahələrində konkret normaların olmamasındadır. Baxmayaraq ki, Azərbaycan məhkəmələri son 10-15 il ərzində mənəvi ziyanın kompensasiyası ilə əlaqədar işləri həll etməklə müəyyən təcrübə qazanmışlar. Ancaq yenə də bir sıra hallarda mənəvi ziyanın kompensasiyası barədə məhkəmə qərarı yalnız hakimin fərdi qənaətlərinə əsaslanır. Zənnimizcə, ümumi hüquq sisteminin qüvvədə olduğu ABŞ, Böyük Britaniyadan fərqli olaraq, məhkəmə presedentlərinin tətbiq olunmadığı bir dövlətdə bu müsbət nəticələr verə bilməz. Qeyd olunan dövlətlərdə məhkəmələrin bu sahədə yüz ildən artıq təcrübəsi vardır. Bütün məhkəmə presedentləri isə sonrakı oxşar presedentlərin həllində tətbiq olunmaq üçün mənbə rolunu oynayır. Bundan əlavə, Azərbaycan qanunvericisi bilavasitə bu sahəni tənzimləyən qanunlarda mənəvi ziyanın kompensasiyasını göstərmir. Məsələn, Azərbaycan Respublikasının "Ətraf mühitin mühafizəsi haqqında" 8 iyun 1999-cu il tarixli Qanunun XIII fəslində birbaşa mənəvi ziyanın kompensasiyası nəzərdə tutulmamışdır. Mənəvi ziyanın kompensasiyası barədə normanı yalnız Azərbaycan Respublikasının "Ətraf mühitə dair informasiya almaq haqqında" 12 mart 2002-ci il tarixli Qanunun 11-ci maddəsinin 2-ci bəndi nəzərdə tutulmuşdur. Həmin normaya əsasən, ətraf mühitə dair qeyri-dəqiq və ya əsassız imtina cavabı alanlar onlara dəyən maddi və mənəvi zərərin ödənilməsini tələb etmək hüququna malikdirlər. Bu normanın həmin sahədəki təcrübədə və qanunvericilikdə nə qədər əhəmiyyətli olmasını dərk etmək çətin deyil. Bununla belə bu norma, göstərilən sahədəki məhkəmə təcrübəsi üçün kifayət olmayıb yalnız ətraf mühitə dair qeyri-dəqiq informasıyanın verilməsi və ya bu cür informasiyanı verməkdən imtinanın nəticəsində dəymiş mənəvi ziyanın kompensasiyası hallarında tətbiq edilə bilər. Zənnimizcə, Azərbaycan Respublikasının "Ətraf mühitin mühafizəsi haqqında" 8 iyun 1999-cu il tarixli Qanununun 79-cu maddəsinin 5-ci bəndinə aşağıdakı redaksiyada cümlə əlavə edilməlidir: "Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması ilə əlaqədar vətəndaşlara dəymiş mənəvi ziyan məhkəmənin qərarına əsa-

sən kompensasiya olunmalıdır. Kompensasiya məbləği müəyyən olunarkən Mülki qanunvericilik normaları və bu xarakterdən olan məhkəmə təcrübəsi nəzərə alınmalıdır”.

Belə məhkəmə mübahisələrində həm maddi, həm də mənəvi ziyanın kompensasiyası üçün aşağıdakı şərtlərin olması vacibdir: hüquqazidd əməl, ziyan və ya zərər vurulması, ziyanvuranın hüquqazidd əməli ilə zərərçəkən şəxsin üzləşdiyi maddi və ya mənəvi ziyan arasında səbəbli əlaqə, ziyan vuran şəxsin təqsiri.

Ukrayna müəllifi S. V. Vasilyev qeyd edir ki, bu kimi məhkəmə işlərində insan orqanizmində yaranan bəzi spesifik xəstəliklərə dair səbəbli əlaqəni müəyyən etmək üçün aşağıdakı problemləri həll etmək lazımdır: xəstəlik törədən və ya sağlamlığı başqa cür pozan ziyanlı əşyanı və onun təsirinin tibbi aspektlərini; onun insan orqanizminə daxil olmasının mümkün olan yollarını və anını; bu əşyanın hər hansı emissiya mənbəyinə məxsusluğunu müəyyət etmək lazımdır (11). Bəzən bu kimi məhkəmə işlərində konkret ərazidə yerləşən müəyyən obyektlərin fəaliyyətinin məsələn, müəssisələrin insan orqanizmi və onun sağlamlığı üçün nə dərəcədə təhlükə kəsb etməsi faktı ilə yaxın ərazidə yaşayan insanların sağlamlığında yaranan bəzi xroniki xəstəliklər və ya digər mənfi nəticələr arasında səbəbli əlaqənin olması faktını sübuta yetirmək çox çətin olur. Bunun sübuta yetirilməsi, Rusiya müəllifi M.İ.Vasilyevanın qeyd etdiyi kimi, xüsusən insan sağlamlığına vurulmuş ekoloji ziyanın zaman nöqteyi-nəzərdən uzanması hallarında daha da çətinləşir (12). Məlumdur ki, ekoloji problemlərin mənfi nəticələri bir qayda olaraq, insan orqanizmində tədricən, yəni müəyyən vaxtdan sonra biruzə verir. Bu kimi problemlər bəzən ekoloji problemin baş verdiyi vaxt yetkin yaşında olan insanların səhhətində deyil, böyüməkdə olan və ya konkret ekoloji problemin baş verməsindən sonra doğulmuş insanların səhhətində biruzə verə bilər. On ildir ki geridə qoyduğumuz XX əsr bəşər tarixində bir sıra müsbət yenilikləri ilə yanaşı, həmçinin bəzi neqativ hadisələri ilə də yadda qalmışdır. Bu, xüsüsən insanın ətraf mühiti, insanların həyat və sağlamlığını və ekosistemin digər növlərini həm məqsədyönlü şəkildə, bəzən isə ağılasığmaz şəkildə sarsıtması halları ilə müşayiət olunmuşdur. Məsələn, Yaponiyanın Hirosima və Naqasaki şəhərlərinin 1945-ci ilin avqustun 6-ı və 9-u nüvə silahı ilə bombardman edilməsi, o cümlədən Ukraynanın Çernobıl şəhərində 1986-cı ilin aprelin 26-da atom elektrik stansiyasında partlayışın baş verməsi bu misallara aiddir. Yaponiyanın Hirosima və Naqasaki şəhərlərinin 1945-ci ilin avqustun 6-ı və 9-u (2 gün ərzində) nüvə silahı ilə bombardman edilməsi nəticəsində 170 000-dən çox əhali həlak olmuş, hadisədən bir neçə ay sonra isə həmin hadisə zamanı təhlükəli zonada yaşamış və sağ qalmış əhalidə qızdırma, xroniki yorğunluq, diareya, saçların tökülməsi, depressiya, daimi ürək bulantıları və s. sindromlar aşkar olunmuşdu. Sonralar həkimlər bu sindromları “şüalanma xəstəliyinin” və ya “ciddi şüa sindromu”nun əlamətlərinə aid edilmişdir. Tədqiqatçıların qənaətlərinə görə, göstərilən xəstəlik öz növbəsində insan orqanizminin müxtəlif cür viruslara qarşı mübarizə qabiliyyətini kəskin zəiflədir. Həmin hadisələrdən 50 il keçəndən sonra da Naqasaki şəhərində sağ qalanlar arasında məhz şüalanmanın təsiri nəticəsində leykemiya xəstəliyinin xüsusilə genişlənməsi məlum olmuşdur. Bu xəstəliyin həmin hadisələrin baş verdiyi zaman daha çox gənc olmuş şəxslər arasında yayılması faktı da sübuta yetirilmişdi (13).

Eyni faktlar Ukraynada da aşkar edilmişdir. İsrail və Ukrayna alimlərinin keçirdiyi birgə tədqiqat əsasında məlum olmuşdur ki, Çernobıl qəzasının nəticələrinin aradan qaldırılmasında iştirak etmiş şəxslərin ailələrində sonradan doğulmuş uşaq-

larda bəzi genetik mutasiya problemləri yaranmış, hansı ki, onların barmaqlarında əlavə naxışların yaranmasında da biruzə verir (14).

Əgər ətraf mühitə ziyan vuran obyekt mülki qanunvericiliklə müəyyən edilmiş yüksək təhlükə mənbəyinə aid edilə bilərsə, onda təqsir ziyan vuran şəxsin mülki hüquqi məsuliyyətə cəlb olunması üçün heç bir əhəmiyyət kəsb etmir. Yəni bu halda təqsirsiz delikt məsuliyyəti yaranır.

## ƏDƏBİYYAT


1. Tiffany M. Luck "The world's dirties cities" -http://www. forbes. com/2008/02/26/ pollution-baku-oil-logistics-cx_tl_0226dirtycities.html.
2. http://www.blacksmithinstitute.org/wwpp2007/final report 2007.pdf.
3. Pollution- http://en.wikipedia.org/wiki/Pollution
4. Top 20 World's cleanest countries.- http:// iipalbanjary.net/net/top-20worlds-cleanestcountries/
5. Azərbaycan Respublikasının Konstitutsiyası. Bakı: Hüquq ədəbiyyatı, 2002, 709.
6. Azərbaycan Respublikasının "Ətraf mühitin mühafizəsi haqqında" 8 iyun 1999-cu il tarixli Qanunu
7. http://www.unece.org/env/pp/documents/cep43e.pdf
8. Cases of Citizens Defending Environmental Rights: Tianjin Company Sued for Water Pollution Damages Filed Under CLAPV Cases By Greenlaw · April 15, 2009-http: //www. Greenlaw.orq.cn/blog/p=956.
9. Azərbaycan Respublikasının Mülki Məcəlləsi.Bakı. Digesta, 2000
10. И.П.Манкевич Право граждан на блогоприятную окружающую среду (гражданско-правовой аспект). Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. Специальность 12.00.03 – Гражданское право; Предпринимательское право; Семейное право; Международное частное право / Белорусской государственный Экономичесий университет. Минск: 2002, 18 с.
11. С.В.Васильев "Доказывание и доказательства в делах о возмещении вреда причиненного здоровью граждан неблагоприятным воздействием природной среды в гражданском процессе Украины"- Государство и право-2000, № 10, с.79-84.
12. М.И.Васильева "Правовые проблемы возмещения вреда причиняемого здоровью граждан неблагоприятным воздействием окружающей среде"- Государство и право-2008, № 10, с.26-36.
13. Lindsey Anhalt"The atomic bomb-A study of aftermath, December 2000-http: // artsci.wustl.edu/~copeland/ atomicbomb. html
14. H.Sh.Weinberg and others "High mutation rate in Chernobyl children"-The Royal Society. *Doi10.1998/rspb.2001.1650*


## ВОЗМЕЩЕНИЯ ВРЕДА ПРИЧИНЯЕМОГО ЗДОРОВЬЮ ГРАЖДАН ВСЛЕДСТВИИ НАРУШЕНИЯ ПРАВА ЖИТЬ В БЛАГОПРИЯТНОЙ ОКРУЖАЮЩЕЙ СРЕДЕ


**А.С.ТАЛЫБОВ**


## РЕЗЮМЕ


Данная статья посвящена одной из наиболее обсуждаемых вопросов относительно возмещения вреда причиненного здоровью граждан неблагоприятным воздействием природной среды и перспективам его развития в действующем законодательстве и судебной практике. По мнению автора, каждое лицо владеет правами связанными с осуществлением экологических интересов, и правами связанными с защитой нарушен-

ных  экологических прав. В статье большое место уделяется вопросам компенсации морального вреда и возмещении материального ущерба причиненного здоровью граждан неблагоприятным воздействием природной среды.

## COMPENSATION FOR THE HARM CAUSED TO THE HEALTH OF CITIZENS AS A RESULT OF VIOLATION OF THE RIGHT TO LIVE IN THE SUPPORTIVE ENVIRONMENT

**A.S.TALIBOV**

**SUMMARY**

This article deals with one of the most debated issues concerning compensation for the harm caused to the health of citizens from the impact of the environment and its prospects for development in the existing legislation and judicial practice. The author believes that every person has rights associated with the implementation of environmental interests, and rights related to the protection of violated environmental rights. The paper focuses on the illustration of non-pecuniary damage and pecuniary damage to the health of citizens from the impact of the environment.